*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (6) 2024*

***Derleme Makalesi | Review article***
***Geliş tarihi |Received:13.08.2024***
***Kabul tarihi |Accepted:28.11.2024***
***Yayın tarihi |Published:25.12.2024***

**Elnur Hacalıyev**

***https://orcid.org/0009-0004-1971-5820***
*Senior Scientific Associate of the Department 'Heydar Aliyev's political heritage and philosophy of Azerbaijanism'. philosophy of Azerbaijanism International relations and International Relations and International Law' Department of the Institute Philosophy and Sociology Institute of ANAS, Doctor of political sciences, Azerbaijan, elnurhacali@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Hacalıyev, E. (2024). Cəmiyyətin siyasi modernləşməsi: Azərbaycan nümunəsində. *Akademik Tarih ve Düşünce Dergisi*, *11* (6), 3959-3967.

# Cəmiyyətin siyasi modernləşməsi: Azərbaycan nümunəsində

***Xülasə***

*Məqalədə Azərbaycan cəmiyyətinin modernləşməsi mənəvi-siyasi dəyərlər kontekstində araşdırılır, dəyər anlayışının məzmunu açıqlanır. Bununla bağlı ən əhəmiyyətli siyasi dəyərlər olan azadlıq, bərabərlik, ədalət kimi mənəvi dəyərlərin mahiyyəti, sosial mənası aydınlaşdırılır. Bu mənada Azərbacan Respublikasının Konstitusiyasında və digər qanunvericilik sənədlərində əksini tapan mənəvi-siyasi dəyərlərin əhəmiyyəti təhlil edilir, bu dəyərlərin cəmiyyətin uğurlu modernləşməsində rolu və təsiri açıqlanır.*

**Açar sözlər:** *Cəmiyyət, modernləşmə, dəyərlər, hüquq, azadlıq, təhsil*

# Political modernisation of society: In the case of Azerbaijan

***Abstract***

*The article analyses the modernisation of Azerbaijani society in the context of moral and political values and explains the content of the concept of value. In this context, the essence and social meaning of the most important political values such as freedom, equality and justice are clarified. In this sense, the importance of moral and political values reflected in the Constitution of the Republic of Azerbaijan and other legal documents is examined, the role and influence of these values in the successful modernisation of society is explained.*

**Keywords:** *Society, modernisation, values, law, freedom, education*

BY NC
Creative Commons Licence

## Giriş

Bir sıra ölkələrin siyasi modernləşməsi şəraitini təhlil edərək və ümumiləşdirərək belə qənaətə gəlmək olur ki, cəmiyyətdə həyata keçirilən dəyişikliklərin müəyyən ardıcıllığını və reallaşdırılmasının qaydalarını gözləmək hökmən lazımdır. Bəzi tədqiqatçılar islahatlara industriallaşmadan başlamağın zəruriliyini iddia edirlər, bir qrup müəllif isə qeyd edir ki, modernləşmə prosesini keçən ölkələrin ciddi köməyinə əsaslanmadan modernləşməni sürətlə həyata keçirmək qeyri-mümkündür.

Siyasi modernləşmənin məzmununda və mahiyyətində ən dəyərli cəhət qeyri-demokratik siyasi rejimdən demokratik rejimə keçiddir. Müasir siyasi elmə aid tədqiqatlarda siyasi modernləşmənin təhlilinə cəhd edərkən mobilləşmənin səviyyəsi ilə cəmiyyət üzvlərinin siyasi həyatda iştirakı səviyyəsinin təşkili və təsisatlaşması nisbəti xüsusi dəyərləndirilir. Siyasi modernləşmənin mahiyyəti və xüsusiyyətlərinə dair müxtəlif fikirlərin araşdırılmasına əsaslanaraq onu müasir siyasi təsisatların, siyasi praktikanın və differensiallıq kəsb edən siyasi strukturların formalaşması, inkişafı və yayılması kimi dəyərləndirmək olar. Qeyd etmək lazımdır ki, həmin təsisatlar və siyasi praktikalar müasir demokratik təsisatlar modelinə uygun gələ bilər və yaxud bu və ya digər dərəcədə fərqlənə də bilər. Bu baxımdan siyasi modernləşmə strategiyasını işləyib hazırlayan Azərbaycan Respublikasında bir tərəfdən, bütövlükdə ictimai inkişafın ən vacib şərti kimi siyasi sabitliyi qoruyub saxlamaq, digər tərəfdən siyasətdə iştirakçılığın imkanlarını və formalarını, islahatların kütləvi bazasını genişləndirmək lazımdır. Əsrimizin ilk onilliyində Azərbaycanda iqtisadi inkişafın yekun göstəriciləri siyasi modernləşdirməni və eləcə də iqtisadi, mədəni-mənəvi baxımdan əhəmiyyətli məsələləri dəqiqləşdirmək üçün düzgün nəticə axtarmağa imkan verir.

### 1.Azərbaycan cəmiyyətində siyasi modernləşmə: dəyələr kontekstində

Şəxsiyyətin və cəmiyyətin fəaliyyətinin daha mükəmməl səviyyədə mədəniyyət sferası ilə tənzimlənməsi dəyərlər sistemi vasitəsilə həyata keçirilir. Normalardan fərqli olaraq dəyərlər (sərvətlər) bu və ya digər obyektin, vəziyyətin tələbatın, məqsədin seçimini nəzərdə tutur. Dəyərlər cəmiyyətə və insana yaxşını və pisi, həqiqəti və səhfi, ədaləti və ədalətsizliyi, mühümü və əhəmiyyətli olmayanı bir-birindən fərqləndirməyə kömək edir. E.Durkheym kollektiv vərdişləri, ənənələri, adətləri, davranış qaydalarını, mərasimləri, bir sözlə, dəyərlər sistemini sosial fakt kimi qiymətləndirirdi. XX əsrin ən böyük filosoflarından hesab olunan A. Uaytxed qeyd edirdi ki, *“mövcudluğunun davam etməsini uzadan Dünya məhz dəyərlər dünyasıdır”* (Filosofskiy slovar', 2004, s. 498). Dəyər-sərvət terminin elmə ilk dəfə böyük alman filosofu İ. Kant gətirmişdir. Dəyər dedikdə mənəvi həyatın bu və ya digər obyektinin müəyyənləşdirilməsi başa düşülür. Başqa sözlə, mənəvi həyatın real faktları, hadisələri, xüsusiyyətləri nəinki dərk edilir, qavranılır, eləcə də qiymətləndirilir. Deməli, belə qənaətə gəlmək olar ki, dəyər subyektiv-obyektiv reallıqdır və maddi

və mənəvi varlığın ictimai mahiyyətini ifadə edir. Ümumi mədəniyyət anlayışının tərkib hissəsi olan siyasi mədəniyyətin ənənəvi başa düşülməsi belə bir inamdan çıxış edir ki, siyasi davranış cəmiyyətdə mövcud olan hakim dəyərlər vasitəsilə formalaşır. Dəyərlər fəlsəfənin xususi bölməsi olan aksiologiyanın tədqiqat predmetidir, siyasi aksiologiya isə tədricən politologiya çərçivəsində formalaşır. Əlbəttə, dəyər dedikdə adətən insan üçün əhəmiyyətli olan gerçəkliyin müəyyən hadisələri başa düşülür. Deməli, bu anlayış öz-özlüyündə reallığın (maddi və mənəvi reallığın) predmetini deyil, məhz onlara münasibəti təcəssüm etdirir.

Siyasi dəyərlər həmişə dövlət tərəfindən yaradılan və müdafiə edilən qaydalarla bağlı olur. Dövlət isə özünü xalq kütlələrindən özgələşdirən qüvvə kimi səciyyələnir. Dəyərlərin vəzifəsi ondan ibarətdir ki, imkan daxilində bu özgələşməni aradan qaldırsın və ya heç olmasa azaltsın, az kəskinləşdirsin. Bu isə öz mahiyyətinə görə xalqın və ya hər hansı sosial qrupun dövlətə istiqamətlənən tələbidir, modernləşmənin məntiqi yönümüdür (Polyakov, 2012, s. 233-235). Müasir dünyanın başlıca siyasi dəyərlərinə adətən aid edilir: siyasi azadlıqlar, bərabərlik, ədalət, insan hüququ, demokratiya, siyasi plüralizm, tolerantlıq, siyasi tərbiyə, vətəndaşlıq, vətənpərvərlik və b. (Mangeym D.ZH. & Rir, 1997, s. 333). Bu dəyərlər cəmiyyət üçün elə arzu edilən variant kimi yaranır ki, hər hansı problemlər fərdlərin və ya qrupların dövlətlə qarşılıqlı münasibətlərində həll edilsin. Bu aktuallıq hər bir cəmiyyətin, eləcə də Azərbaycan cəmiyyətinin modernləşməsi baxımdan olduqca dəyərlidir.

"Azadlıq" anlayışı adətən insanın öz iradəsini təzahür etdirmək imkanı, hər hansı məhdudlaşdırmadan asılı olmamaq mənasında izah edilir. Siyasi azadlıq da belə səciyyələnir, lakin dövlətlə əlaqələndiriliən səviyyədə. Söhbət ondan ibarətdir ki, dövlət insanların bəzi fəaliyyət sferalarına qarışmamalı, onu sıxışdırmamalı və məhdudlaşdırmamalıdır. Belə ki, dövlət prinsip etibarilə söz, mətbuat, toplaşmaq, birləşmək, peşə seçmək, əqidə azadlıqlarını və b. məhdudlaşdırmamalıdır. Nə qədər ki, dövlətə qarışmamaq tələbi ilə müraciət olunursa, belə halda həmin azadlıqların siyasi xarakteri onlara belə bir məna verir ki, dövlət insan azadlıqlarını hüquqla möhkəmləndirməyə və onların reallaşmasını təmin etməyə borcludur. *"Azad insan o şəxsdir ki, bütün baş verənlər onun istəyinə uyğundur"* (Taranov, 1999, s. 213). Cəmiyyət üzvlərinin siyasi iştirakçılığı siyasi modernləşmənin xüsusi komponenti kimi çıxış etdiyi üçün, vətəndaşların siyasi hüquq və azadlıqlarının dövlət tərəfindən həyata keçirilməsi də məntiqi olaraq indiki və strateji modernləşməyə istiqamətlənən siyasi davranış kimi dəyərlənir. Bu istiqamətdə cəmiyyətimizdə həyata keçirilən siyasi xarakterli ciddi dəyişikliklər çox önəmlidir (Baranov, 2003, s. 323). Müstəqillik dövründə Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi üçün islahatlar həyata keçirilmiş və milli qanunvericilik beynəlxalq, eləcə də Avropa standartlarına uyğunlaşdırılmamışdır. Azərbaycanın

dövləti müstəqilliyi qeyd edilmiş, 80-ci illərin sonu və 90-cı illərin başlanğıcında insan hüquqlarının kütləvi pozulmasına səbəb olan hallara və faktlara siyasi qiymət verilmiş, bu vəziyyətin vətəndaş müharibəsinə, dövlətçiliyə təhlükə yaratdığı göstərilmişdir.

Azərbaycanda modernləşməni şərtləndirən ümumi dəyərlər sistemində insan hüquqlarının müdafiəsi, onların həyata keçirilməsinin tənzimlənməsi və digər tədbirlərlə bağlı dövlət səviyyəsində xüsusi fəaliyyət mexanizminin mövcudluğudur. Belə ki, Prezident Heydər Əiyevin 18 iyun 1998-ci il sərəncamı ilə «İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı» təsdiq edilmişr. Proqramda insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı bir sıra məsələlərə diqqət yetirilmişdir. Eləcə də 24 avqust 2002-ci ildə «Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında» Konstitusiya qanını qəbul edilmişdir. Bütün qəbul edilən dövlət və qanunvericilik sənədləri modernləşmənin məzmununu təşkil edən vətəndaşların siyasi fəaliyyətinin, vətəndaş mədəniyyətinin yüksəldilməsinə istiqamətlənir, eləcə də siyasi və iqtisadi baxımdan modernləşməyə ciddi təsir göstərən siyasi sosiallaşma prosesinin sürətlənməsini nəzərdə tutur. Bunlarsız cəmiyyətin modernləşməsi və ya demokratikləşməsi kursu tam başa çata bilməz. Çünki modernləşmə nəinki siyasi və iqtisadi cəhətdən cəmiyyət üzvlərinin fəallığından asılıdır, eləcə də siyasi strukturların rasional və məqsədyönlü fəaliyyəti ilə şərtlənir.

Modernləşmənin siyasi dəyərlər konteksində başa düşülməsi həmçinin, siyasi bərabərlik və siyasi ədalət barədə mülahizə və mühakimələrin yürüdülməsini obyektiv zərurətə çevirir. «Siyasi həyatın mürəkkəbləşməsi, insanların azadlıq, bərabərlik və demokratiya ideallarını həyata keçirmək tələbatı» cəmiyyətin modernləşməsinin qanunauyğunluğudur Slavina-Skretova, 2001, s. 22). Adətən iki əsas demokratik prinsip-azadlıq və bərabərlik fərqləndirilir. Demokratiya anlayışının məzmununun dəyişilməsi ilə bağlı bu anlayışdan nəinki dövlətə münasibətdə eləcə də lokal sosial və siyasi birliklərə münasibətdə istifadə olundu. Liberal-demokratik fikirdə azadlıqla bərabərliyin nisbətinə aid müxtəlif rəylər mövcuddur. Məsələn, azadlıq siyasi-hüquqi kateqoriya kimi əsaslandırılır və bərabərlik prinsipi ilə müqayisədə ona üstünlük verilir.

Siyasi azadlıq o zaman reallaşa bilir ki, hamıya aid edilir. Azadlığın qeyri-bərabər «dozada» reallaşması onun inkarını təcəssüm etdirir. Buna görə siyasi azadlıq bərabərlik prinsipinin hökmən gözlənilməsini tələb edir. Lakin onun özü bu prinsipi pozur. Bütün cəmiyyətlərdə, eləcə də Azərbaycan cəmiyyətində necə ki, «azad» bazar iqtisadiyyatı rəqabətli mübarizədə qaliblərin və məğlubların iqtisadi qeyri-bərabərliyini doğurur, eləcə də azad siyasi həyat vətəndaşları daim liderlərə və autsayderlərə, idarə edənlərə və icraçılara, başqa sözlə dövlət hakimiyyətinə aid olanlara və aid olmayanlara ayırır. Platon, Tokvil və b. azadlıqla bərabərliyin bir yerə sığmadığını qeyd etmişlər. Lakin bütün deyilənlərlə yanaşı, bərabərlik iki cür qanun qarşısında bərabərlik və siyasi hüquq bərabərliyi kimi səciyyələnir. Siyasi hüquq bərabərliyi o deməkdir ki, hər kəs seçmək və

seçilmək hüququna malikdir. Azərbaycan Respublikasının Konstitusiyasında deyilir: Hamı qanun və məhkəmə qarşısında bərabərdir (maddə 25), hər kəsin azadlıq hüququ vardır (maddə 28). Konstitusiyada təsbit olunmuş hüquq və azadlıqlar vətəndaşların öz hüquqlarından bərabər hüquqlu istifadə etmələrinə, sərbəst siyasi və iqtisadi fəaliyyətlərinə real və geniş imkanlar yaradır, bütövlükdə demokratik, sivil və modern cəmiyyət quruculuğuna əlverişli zəmin təmin edir. Siyasi ədalət isə bütün hallarda dövlət tərəfindən həyatı nemətlərin bölüşdürülməsi probleminə aid edilir. M.Veberin qeyd etdiyi kimi, siyasi dəyərlərdən olmaq etibarilə, ‘’siyasi ədalətin faktiki indikatoru siyasi hakimiyyətin legitimliyidir’’. Heç də təsadüfi deyildir ki, «ədalət» anlayışının təzahürü məhz dövlətin təşəkkülü ilə bağlıdır.

‘’Ədalət’’ anlayışı özündə cəmiyyət həyatında müxtəlif fərdlərin, sosial təbəqə və qrupların praktiki rolu ilə onların sosial vəziyyəti arasındakı mütənasibliyi, eləcə də hüquq və vəzifələri, əməyi, xidmətləri və bunun ictimai etirafını, insanların cinayəti və cəzalandırılması arasındakı tələblərin uyğunluğunu təcəssüm etdirir. Bu prinsiplər gözlənilmədikdə cəmiyyətin ahəngdar inkişafı və bu inkişafın məntiqi sonluğu kimi onun mükəmməl səviyyədə modernləşməsi üçün əlverişli şərait və zəmin yaranır. Ümumiyyətlə, bütövlükdə «insan azadlıqları-insan fəaliyyətinin elə sahəsidir ki, dövlət buraya müdaxilə etməməlidir (Abdullayev, Azarov, Hüfner & Röyter, 2008, s. 25). Mükəmməl demokratiyanın zəminini bir-birini tamamlayan vətəndaş cəmiyyəti sferaları-özünütəşkil, dəyərlərin və maraqların artikulyasiyası (əlaqələndirilməsi), asossiasiyaların formalaşması, insanların həmrəyliyi sferası təşkil edir. Möhkəmləndirilmiş demokratiya (modernləşmənin zəruri zəmini) həmin sferaların təsisatlaşmasının nəticəsi kimi təşəkkül tapır. Elmi ədəbiyyatda bunu ifadə etmək üçün «sosial kapital» anlayışından istifadə edilir (Mehdiyev, 2005). Demokratikləşmənin və ya modlernləşmənin reallaşması məqsədilə vətəndaş cəmiyyəti iştirakçıları arasında normativ razılaşmanın təmin edilməsi vacibdir. Bu razılaşma transformasiya cəmiyyətləri və təbii ki, eləcə də Azərbaycan cəmiyyəti üçün çox vacibdir. Həmin razılaşmaya aiddir:

- Vətəndaş razılaşması - özündə azadlıq normalarını, vətəndaş bərabərliyini, həmrəyliyi, şəxsiyyətlərarası mücərrəd inam.
- Siyasi razılaşma- siyasi cəmiyyət kontekstində mövcud olan və siyasi sferada demokratik proseduraların və normaların təsisatlaşmasını təmin edən azadlığı – seçki azadlığını, siyasi partiyaların və assosiasiyaların yaradılmasını; bərabərliyi – hüquq və imkanların bərabərliyini, eləcə də seçkilərdə iştirak bərabərliyini, seçkilərdə bərabər hüquqlu olmağı; şəxsiyyətlərarası inamı, partiyalararası birliklərin effektliyini (məsələn seçkilərdə) və qanunverici orqanları əhatə edir.
- Konstitusiyaya əsaslanan razılıq - hüquq normaları vasitəsilə açıqlanır.

- Bazar razılığı- şəxsiyyətlərarası inama, rəğbətə, maddi mülahizələrə və b. əsaslanır.

- Bürokratik razılaşma - iyerxiyalı subordinasiya normalarını, qanuna tabe olmağı və formal rasionallığı özündə təcəssüm etdirir.

Bütün normativ razılaşmalar bir-biri ilə sıx bağlıdır və kifayət qədər normativ-təsisatlı sistemi səciyyələndirir. Bu razılaşma vəziyyəti siyasi elmə aid ədəbiyyatda demokratik razılaşma - ideal normativ razılaşma kimi dəyərləndirilir (Andreyev, 2015, s. 301). Demokratiyanın möhkəmliyini və ya modernləşmənin etibarlı cəmiyyətini o zaman təsdiqləmək olar ki, cəmiyyətdə bütün «normativ razılaşmalar» fəaliyyət göstərir və sosial kapitalın toplanması baş verir. Bu baxımdan hazırda Azərbaycanda sosial normalar sosial kapitalın toplanmasına və sabit təkrar istehsalına və təbii ki, modernləşmənin möhkəmlənməsinə uyğun gəlmir (Politologiya: uchebnik i praktika dlya vuzov, 2024). Azərbaycan sosiumunun normativ təsisatlı strukturu üçün sərvət dəyər yönümlərinin və davranış normalarının lokallığı və şəxsləndirilməsi xarakterikdir. Azərbaycanlılar arasında bu normaların yayılması kifayət qədər deyildir. Buna görə möhkəm modernləşmənin təsisatlarının mövcudluq sferası təşəkkül tapa bilər, lakin onların təkrar istehsalı situasiyadan asılı olacaq, mütləq olmayacaq.

Təsisatlaşmış normaların qıtlığı bütün razılaşmaların vəziyyətini səciyyələndirir. Oyun nəzəriyyəsi qeyd etməyə imkan verir ki, «vətəndaş razılaşması» məqamında azadlıq və bərabərlik kimi siyasi dəyərlər sosiumu yaradan fərdlərin yalnız yarısı üçün əhəmiyyətlidirsə, belə halda həmin dəyərlər normativ məna kəsb edir. Qeyd edək ki, 2022-ci ildə təsisatlı resurs olmaq etibarilə, azadlıq siyasi dəyər kimi rəyi soruşulanların 26%-i üçün əhəmiyyətli olmuşdur, şəxsiyyətlərarası inam səviyyəsi də 30%-dən artıq olmamışdır. Bu eləcə də təsisatlı inamın son dərəcə aşağı olduğu fakta da aiddir. Ölkəmizin sosial və siyasi təsisatlarına inamın aşağı səviyyəsi cəmiyyətə və qismən dövlətə münasibəti ilə müşayiət olunur. Vətəndaşlar elə sosial və siyasi təsisatlara inam hissi bildirirlər ki, məhz onlara pozitiv təsir göstərirlər. Normativ prinsip kimi bərabərlik siyasi dəyərini rəyi soruşulanların yalnız 20%-i dəyərləndirmişdir. Bir tərəfdən dəyərlər və normativ strukturlar arasında digər tərəfdən isə, bu strukturlarla möhkəm demokratiyaya və mükəmməl modernləşməyə tələb arasında fərq açıq şəkildə nəzərə çarpır. Rəyi soruşulanların modernləşmə baxımdan arzuladığı cəmiyyət demokratik qərb cəmiyyəti ilə əlaqələndirilir. Belə qənaətə gəlmək olar ki, demokratik Azərbaycan cəmiyyətində vətəndaşların müəyyən hissəsi daha çox qərb modernləşməsinə maraq göstərirlər, ölkəmizdə modernləşmənin qərb siyasi dəyərləri kontekstində həyata keçirilməsinə üstünlük verirlər. Belə sərvət yönümü Azərbaycan hökumətinin qərb yönümlü müəyyən siyasi və iqtisadi siyasəti ilə üst-üstə düşür. Bu isə Azərbaycanda modernləşmənin siyasi dəyərlər sistemi kontekstində həyata keçirilməsinin məhz demokratik zəmində reallaşmasının təsdiqi kimi dəyərləndirilə bilər.

Azərbaycan özünəməxsusluğunun fərqli cəhətləri olmasına baxmayaraq, əhalinin bütün siyasi cəhətdən fəal tərəfləri üçün müstəqil dövlətçilik prinsipi prioritet kimi qalır. Bununla bağlı Akademik R.Mehdiyev yazır: «İndi dünyada insanların mənəvi həyatında – həm dünyəvi, həm də dini həyatında birləşdirici proseslər, inteqrasiya prosesləri getdikcə daha qətiyyətlə təzahür edir. Müasir hümanist ideyaları, liberal və sosialist fikri, katalikliyi, pravoslavlıq və islamı, Qərb mentalitetini və Şərq etiketini birləşdirə biləcək amillərin gərgin axtarışı gedir”.

Azərbaycan cəmiyyətində modernləşmənin siyasi-mənəvi dəyərlər sistemi kontekstində başa düşülməsi baxımından bu prosesə əhəmiyyətli təsir göstərən obyektiv amillərin nəzərə çatdırılması vacibdir:

- Azərbaycanın xüsusi geosiyasi vəziyyəti;
- zəngin maddi-iqtisadi resurslara malik olması;
- əhalinin etnik tərkibinin müxtəlifliyi;
- İslam dininin başlıca mövqeyə malik olması zəminində bir sıra dini icmaların mövcudluğu;
- modernləşmənin «başa çatması» tipinin mövcudluğu;
- cəmiyyətin Avropaya və dünyanın digər ölkələrinə «pəncərəsi»;
- kollektiv həyat tərzi formalarının üstünlüyü;

Əlbəttə bu amillər Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Modernləşmə yalnız siyasi dəyərlər sayəsində deyil, eləcə də digər mənəvi amillərin təsiri nəticəsində reallaşan fenomen kimi səciyyələnir. Cəmiyyətdə baş verən mənəvi dəyişiklik modernləşməyə məruz qalmaqla, sosial tənzimləmə prinsiplərinin fəaliyyət sferasını genişləndirir. Mədəniyyət cəmiyyətin bütün mənəvi həyatının vahid-bütöv sistemdir. İnsanların fəaliyyətinin bütün növləri nəticə etibarilə, maddi və mənəvi dəyərlərin yaradılmasına istiqamətlənir. Cəmiyyət elmdə, təhsildə, mənəvi həyatın bütün sferalarında cəmlənmiş intellektual, mənəvi potensialı hər vasitə ilə fəallaşdırmadan ictimai həyatın yeniləşməsi və modernləşməsi qeyri-mümkündür. Mənəvi amillər sırasında təhsil xüsusi yer tutur. O, insanların yüksək mədəni səviyyəyə, mənəviyyata yiyələnməsi və tarixi-mənəvi prosesləri düzgün izləməsi üçün ilk şərtidir. Təhsil insanların öz xalqının təbii və mənəvi dəyərlərinə məsuliyyətli ictimai tələbatını doğurur, şəxsiyyətin milli maraqlarının yüksəlməsi perspektivinə əhəmiyyətli təsir göstərir, onun fəaliyyət xarakterini nəcibləşdirir, ictimai həyatın bütün sahələrində keyfiyyət yeniliklərinin baş verməsində böyük rol oynayır. Təhsil stratifikasiya proseslərinə, sosial differensiyaya və qeyri-bərabərliyin mövcudluğuna əhəmiyyətli təsir göstərir. Təhsilin səviyyəsi və keyfiyyəti fərdlərin və qrupların sosial mövqeyini müəyyən edir, sosial fərqləri

möhkəmləndirir. Dövlət səviyyəsində Azərbaycan cəmiyyətində təhsilin, elmin inkişafına diqqət yetirilməsi heç də təsadüfi deyildir. Məlum olduğu kimi, respublikamızda bütün təhsil sistemi üzrə islahatlar davam etdirilir. Ölkəmizdə təhsil sahəsində aparılan islahatın ən dəyərli cəhətlərindən biri onun müəyyən mənada əvvəlki dövrdə məqbul sayılmayan məqsədinin dəyişdirilməsi, konkret insanların, şəxsiyyətin ehtiyac və tələbatının ödənilməsi naminə yeni səpkidə təşəbbüslərə cəhd edilməsidir.

**Nəticə**

Ümumiyyətlə, bütün siyasi tədqiqatların, eləcə də siyasi modernləşmə konsepsiyalarının obyektivliyi, tamlığı, dəqiqliyi və elmi yeniliyi o halda mümkündür ki, onlar kompleks metodlara əsaslansın. Siyasi modernləşmə problemi barədə tətbiqi elmi biliyə real siyasi effektə nail olmağa istiqamətlənən nəzəri modellərin, tədqiqatın metodoloji prinsiplərinin və prosedurlarının məcmusu kimi diqqət yetirilməlidir. Politoloji təhlilin spesifik məntiqi olmaq etibarilə, siyasi modernləşmə konsepsiyasının istiqamətlərini araşdırarkən belə nəticəyə gəlmək olur ki, bu araşdırma mürəkkəb keçid mərhələlərini təhlil etməyə imkan yaradır. Həmin istiqamətdə formalaşan çoxsaylı tədqiqatlar dünya birliyinin öz təkamülünün industrial və postindustrial fazasına doğru inkişafının ümumi istiqamətini təsdiqləyir. Bu reallıq bir daha modernləşmə nəzəriyyəsinin, eləcə də siyasi modernləşmə konsepsiyalarının əhəmiyyətini əks etdirir. Azərbaycanda modernləşmə tarixən dövlətçiliyin təkamülü gedişində, ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid prosesində baş vermişdir və dövlətçiliyin inkişafının müxtəlif mərhələləri özünəməxsus xüsusiyyətlərlə fərqlənmişdir. Demokratik transformasiyanı uğurla başa çatdırmaq üçün bir sıra vacib şərtlər reallaşdırılmalıdır, xüsusilə ictimai həyatın müxtəlif sferalarında dəyişikliklərin tarazlığını təmin etmək zəruridir. Bu məqsədlə müəyyənedici şərt hakim elitanın nəinki texniki-iqtisadi, eləcə də siyasi modernləşməni həyata keçirməyə hazır olmasıdır. Digər tərəfdən, başlıca pozitiv qərar bundan ibarət olmalıdır: elə sosial-iqtisadi və siyasi münasibətlər formalaşdırılmalıdır ki, əhalinin geniş dairələrinin maraqlarına cavab versin və onlarda hakimiyyəti sabit tərzdə müdafiə etmək qabiliyyətini bərqərar etməyə qadir olsun.

**Ədəbiyyat**

*Filosofskiy slovar'*. (2004). (Pod red. A.P.Yarechenko). Rostov-na Donu: Feniks.

Polyakov, A. V. (2012). Modernizatsiya: sushchnost', aktory, obraz. *Teoriya i praktika,* (2), 233-236.

Mangeym, D.ZH. & Rir R. K. (1997).*Politologicheskiye metody;* Per. s angl. Ves' mir.
Taranov, P. (1999). *Zvezdy mira.* M. Firma. PST

Baranov, N. A. (2003). Politicheskiye otnosheniya i politicheskiy protsess v sovremennoy Rossii.

Slavina-Skretova, N.B. (2001). Politicheskaya modernizatsiya.

Abdullayev, Ə., Azarov, A., Hüfner, K. & Röyter, V. (2008). *İnsan hüquqları.* Beynəlxalq və milli müdafiə mexanizmləri. E.L.NPŞ MMC.

Mehdiyev, R. Ə. (2005). *Azərbaycan: qloballaşma dövrünün tələbləri*. XXI Yeni Nəşrlər Evi.

Andreyev, A.V. (2015). *Vliyaniye politicheskoy modernizatsii na kontseptsiyu sotsial'nogo gosudarstva v Rossiyskoy Federatsii* (Doktorskaya dissertatsiya, Moskovskiy gosudarstvennyy universitet im. M.V. Lomonosova).

*Politologiya: uchebnik i praktika dlya vuzov*. (2024). V. A. Achkasov [i dr.]; (Pod red. V. A. Achkasova, V. A. Gutora). Izdaniye 2-ye, pererabotannoye. i prilozheniye. Izdatel'stvo Yurayt. (Vyssheye obrazovaniye).